

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 177 (23.088)

19 sentyabr 2018-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun açılışında iştirak edib.

* * *

Prezident İlham Əliyev həmin gün Masallı rayonuna səfərə gedib.

Dövlətimizin başçısı sentyabrın 18-də Masallı Sənaye Məhəlləsinin, "Masallı - Nemətləri" Məhdud Məsuliyyətli Cəmiyyətin çəltik emalı müəssisəsinin, əsaslı şəkildə yenidən qurulan Şatıroba-Hişkədərə-Miyankü-Kubin-Birinci Səmidxanlı-Xallıcalı-Eminli-Məmmədxanlı avtomobil yolunun açılışlarında iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Biləsuvar rayonuna səfərə gedib.

Prezident İlham Əliyev həmin gün Biləsuvar rayonunun Zəhmətabad-Bəydili-Xırmandalı-Əliabad avtomobil yolunun, Bayraq Muzeyinin, Biləsuvar Gənclər Evinin açılışlarında iştirak edib.



## Gənc müəllimlərlə görüş keçirilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən 24 avqust-12 sentyabr 2018-ci il tarixlərdə keçirilən imtahanlarda müvafiq keçid balını toplayaraq işə qəbul edilən gənc müəllimlərlə görüş olub. Təhsil Nazirliyində keçirilən tədbiri giriş sözü ilə açan nazir Rəhman Məmmədov gənclərin muxtar respublikamızın ictimai-siyasi həyatındakı mühüm rolundan, onlara göstərilən yüksək dövlət qayğısından danışıb.

Qeyd olunub ki, təhsilin keyfiyyəti gələcək nəsillərə bilik verən müəllimlərin səviyyəsindən də çox asılıdır. Bu gün muxtar respublikada təhsil sahəsində görülən işlərdən biri də müəllim heyətinin seçilməsindəki yenilikdir. Bu yenilik Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 aprel tarixli qərarı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumi təhsil və ilk peşə ixtisas təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"na uyğun olaraq komissiya tərəfindən pedaqoji profilli ixtisasları bitirmiş gənclərin müsabiqə yolu ilə işə qəbuludur.

Vurğulanıb ki, ilkin mərhələdə Təhsil Nazirliyi tərəfindən muxtar respublikanın ümumtəhsil məktəblərində ixtisaslar üzrə, ümumilikdə, 165 vakant iş yeri müəyyənləşdirilib. 17 iyul 2018-ci il tarixində Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən elan edilən müsabiqəyə həmin vakant yerləri tutmaq üçün 528 sənəd təqdim edilib. 24 avqust-12 sentyabr 2018-ci il tarixlərdə keçirilmiş test imtahanlarının nəticələrinə əsasən bu gün 45 müəllim işlə təmin olunur.

Təhsil naziri bildirib ki, stimullaşdırıcı tədbirlərin tətbiq olunduğu məktəbləri seçən gənclərin 9 nəfərinin yaşayış yeri Naxçıvan şəhəridir. Gənclərin ucqar dağ kəndlərində yerləşən təhsil müəssisələrində pedaqoji fəaliyyət göstərmək istəyi həmin təhsil müəssisələrində yaradılmış yüksək şərait və yaşayış məntəqələrinin günü-gündən müasirləşməsi ilə əlaqədardır. Bütün bunlar isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublikamızda həyata keçirdiyi əməli tədbirlərin məntiqi nəticəsidir.

Sonra təhsil naziri gənc müəllimləri pedaqoji fəaliyyətə başlamaları münasibətilə təbrik edib, onlara hərtərəfli biliyə, geniş dünyagörüşünə, xalqın milli-mənəvi dəyərlərinə yiyələnən, millətini və Vətənini sevən nəsil yetişdirilməsində səylə çalışmalarını arzulayıb.

Təhsil Nazirliyinin Ümumtəhsil məktəbləri və liseylərlə iş üzrə şöbəsinin müdiri Abdulla Əsgərov çıxış edərək ümumtəhsil məktəblərində müəllimlərin əsas vəzifələri barədə məlumat verib.

Gənc müəllimlər adından çıxış edən Sevinc Məmmədova həyata keçirilən uğurlu təhsil siyasəti, fəaliyyətləri üçün yaradılan şəraitə və gənclərə göstərilən yüksək qayğıya görə minnətdarlığını bildirib.

Sonda Təhsil Nazirliyi tərəfindən gənc müəllimlərə metodik vəsaitlər təqdim olunub.

**Naxçıvan Muxtar Respublikası**
**Təhsil Nazirliyinin mətbuat xidməti**

*Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi 2018-ci ilin avqust ayında yerli məhsulların daxili və xarici bazarlarda rəqabətədavamlı olması üçün keyfiyyət standartlarına əməl edilməsinə nəzarət işini, o cümlədən təsərrüfat subyektlərinin istehsal-xidmət şəraitinin standartlar səviyyəsinə uyğunluğunu diqqətdə saxlamışdır. Bu dövrdə məhsulların 237 halda keyfiyyət göstəricilərinin yoxlanılması təmin edilmiş və sertifikatlaşdırılmasına dair elektron xidmət vasitəsilə daxil olmuş 39 müraciət operativ icra olunmuşdur.*

## Keyfiyyətə nəzarət məqsədilə tədbirlər davam etdirilir



Yerli istehsal məhsullarının keyfiyyətinin qorunması məqsədilə 112 qida istehsalı müəssisəsinə maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülmüşdür. Təsərrüfat subyektlərindən götürülmüş məhsul nümunələrinin 235 halda laboratoriya analizləri aparılmış və texniki normativ-hüquqi aktların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Meyvə-tərəvəz və onlardan hazırlanmış məhsulların keyfiyyətinin nəzarətdə saxlanılması tədbirinin icrası çərçivəsində məhsulların 9 halda keyfiyyət göstəriciləri yoxlanıldıqdan sonra sertifikatlaşdırılmış, 12 anbardan, 23 bostandan və 11 satış obyektindən götürülmüş məhsulların 91 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" üzrə muxtar respublikada istehsal edilən arıçılıq məhsullarının, arıçılıq təsərrüfatlarında istifadə olunan avadanlıqların sertifikatlaşdırılmasının təmin edilməsi istiqamətində aidiyyəti təşkilatların nümayəndələri ilə birlikdə Ordubad rayonunun Sabirkənd kəndində arıçılıq məhsulları istehsalçıları ilə maarifləndirici görüş keçirilmişdir.

Əhalinin hepatit virus infeksiyalarından qorunması işinə nəzarət üzrə avqust ayında 34 təsərrüfat subyektində 78 işçinin tibbi müayinələri ilə bağlı monitorinqlər aparılmışdır.

Uşaq bağçalarının, məktəblərin, xəstəxanaların və digər təhsil və səhiyyə müəssisələrinin yerli məhsullarla təmin edilməsi və alınan qida məhsullarının keyfiyyətinin müntəzəm nəzarətdə saxlanılması istiqamətində 2 təhsil müəssisəsinin bufet və yeməkxanasında, 13 məktəbəqədər tərbiyə müəssisəsinin yeməkxanasında monitorinqlər, 14 səhiyyə müəssisəsinin yeməkxanasında yerli məhsullarla təminatın üstünlüyü barədə maarifləndirici tədbirlər aparılmışdır.

Payız-qış mövsümünə hazırlıqla əlaqədar Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsinin nümayəndələri ilə birgə elektrik və qaz cihazlarının satışını həyata keçirən 80 təsərrüfat subyektində müşahidə xarakterli monitorinqlər aparılmış, 10 ticarət obyektində satışda olan 15 mətbəx qaz pilətəsinin təhlükəsizlik sistemi olmadığı aşkarlanmış və satışdan çıxarılmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Antiinhisar və İstehlak Bazarına Nəzarət**
**Dövlət Agentliyinin mətbuat xidməti**

## Muxtar respublikada maliyyə intizamının gücləndirilməsi diqqət mərkəzindədir

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizdə yeni siyasi və iqtisadi şəraitə uyğun olan qanunvericilik və normativ-hüquqi baza yaradıldı, genişmiqyaslı islahatlar aparıldı. Qısa müddət ərzində bütün sahələrlə yanaşı, dövlət maliyyə nəzarəti üzrə bütün qanunvericilik və təşkilati məsələlər öz həllini tapdı. Ölkəmizdə tamamilə yeni maliyyə nəzarəti strukturu, Azərbaycan Respublikasının Hesablama Palatası yaradıldı.1999-cu ildə Hesablama Palatası haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edildi. 2001-ci ildə Azərbaycan Respublikası Hesablama Palatasının fəaliyyətə başlaması ilə kənar dövlət maliyyə nəzarəti sisteminin təməli qoyulmuş və respublikada səmərəli maliyyə nəzarəti sisteminin təşəkkül tapması istiqamətində mühüm addımlar atılmışdır.

Ümummilli liderimizin dövlət quruculuğu xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2008 və 2010-cu illərdə "Hesablama Palatası" haqqında Qanuna dəyişiklik və əlavələr edilməsi haqqında qəbul edilmiş Azərbaycan Respublikasının Qanunu Palatanın dövlət maliyyə nəzarəti sistemində rolunun gücləndirilməsində mühüm əhəmiyyətə malik olmuşdur.

Naxçıvan Muxtar Respublikasında da bütün sahələrlə yanaşı, dövlət maliyyə nəzarəti sisteminə də diqqət və qayğı göstərilir. 2005-ci ilin oktyabr ayında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikasının büdcəsinə nəzarət istiqaməti üzrə Azərbaycan Respublikası Hesablama Palatasının Auditorunun fəaliyyətinin təminatı sektoru fəaliyyətə başlamış, 2007-ci ilin may ayından isə Azərbaycan Respublikası Hesablama Palatasının Auditorunun fəaliyyət istiqaməti üzrə Naxçıvan Muxtar Respublikasının Dövlət büdcəsinə nəzarət şöbəsi yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində 2008-ci il sentyabrın 19-da Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi yaradılmış, idarə lazımi iş şəraiti ilə təmin olunmuşdur.

"Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi haqqında" Əsasnamə təsdiq edilmiş, idarənin fəaliyyət istiqaməti müəyyənləşdirilmişdir. Əsasnaməyə əsasən Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi muxtar respublikada dövlət büdcə-maliyyə nəzarətini həyata keçirir. Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi büdcə vəsaitlərinin xəzinə hesabına daxil olmasının və istifadəsinin qanunla təsdiq edilmiş göstəricilərə uyğunluğunu təhlil edir. Hüquqi şəxslərə dövlət və Naxçıvan Muxtar Respublikası dövlət büdcəsindən vəsaitlər ayrıldıqda həmin vəsaitlərin təyinatı üzrə istifadə edilməsinə nəzarəti həyata keçirir.

İdarənin həyata keçirdiyi nəzarət tədbirlərinin əsas məqsədi maliyyə intizamının gücləndirilməsi və hesabatlılığın artırılmasıdır. Fəaliyyəti dövründə idarə tərəfindən müəssisə və təşkilatlara ayrılan büdcə vəsaitlərinin istifadəsinin, illik maliyyə hesabatlarının dürüstlüyünün və mühasibat uçotunun aparılmasının normativ sənədlərə uyğunluğunun auditi aparılmışdır. İdarə tərəfindən ildən-ilə həyata keçirilən büdcədənkənar maliyyə nəzarəti tədbirlərinin sayının artması ilə yanaşı, əhatə dairəsi də genişləndirilmişdir.

Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi tərəfindən 10 il ərzində 80 müəssisə və təşkilatda audit tədbirləri həyata keçirilmiş, 87 müəssisə və təşkilat üzrə maliyyə hesabatlarının təhlili aparılmış, təhlillərin nəticələrinə dair rəylər hazırlanmışdır.

İdarə əməkdaşlarının fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, medal və fəxri adlarla təltif edilmişlər.

Dövlət qayğısını daim üzərlərində hiss edən Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin kollektivi bundan sonra da qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində səylə çalışacaqdır.

**"Şərq qapısı"**

# Naxçıvan dünən

## Sərhəd kəndlərində vəziyyət necədir?

### *Sabaha ümid hissini qırmayaq*





Cəhri kəndini keçib üzüyuxarı qalxırıq. Sürücü deyir: – Çoxdandır bizim yerlərə müxbir gəlmir. Sanki qəzet, televiziya və radio işçiləri bizi unudublar. Halbuki sərhəd kəndlərinə tez-tez gəlmək, burada yaşayanların həyat tərzi ilə müntəzəm maraqlanmaq lazımdır.

Üzümü ona tərəf çevirib:

– Haqlısan, qardaş, haqlısan, – deyirəm. Tənqiddən nəticə çıxararıq.

Sürücü gülə-gülə deyir:

– Tənqid etmirəm, ürək sözlərimi deyirəm.

Söhbət yolun damarını qısaldır. Aşağı Buzqov kəndinə çatırıq. Ağsaqqallarla, cavanlarla, kəndin ziyalıları ilə görüşüb söhbət edirik. Bizi dövrəyə almış adamlar bugünkü qayğılardan, onları narahat edən məsələlərdən söhbət açırlar. Hiss edirik ki, sərhəd kəndinin sakinlərini ən çox narahat edən möhtəkirliyin gündən-günə artması və adamların qanını soran belə insafsızların qarşısının alınmamasıdır. Altmış dörd yaşlı Əliqulu Cəlalov deyir:

– Qardaş, başa düşürük ki, hər yerdə qıtlıqdır. Bu qıtlığı yaradanların bir qismi alverçilər, möhtəkirlərdir. Naxçıvan taxıl məhsulları kombinatının qabağında unun bir tayını 120 manata satırlar. Bunu havadan demirəm. Özüm dəfələrlə oradan bu qiymətə müxtəlif adamlardan un almışam. Halbuki unun bir tayının qiyməti 46 manat 50 qəpikdir. Belə də soyğunçuluq olar?

Kənd orta məktəbinin müəllimi İsmayıl Əsgərov söhbətə qoşulur:

– Başa düşə bilmirəm. Görəsən, gündən-günə göbələk kimi artan bu möhtəkirləri muxtar respublikanın aid təşkilatların rəhbərləri, ən əvvəl inzibati orqan işçiləri görmürlər? Əliqulu dayı tamamilə haqlıdır. Nəyə görə kombinatdan unu çıxarıb eşikdə qat-qat baha qiymətə satanların qabağı alınmır? Axı bu məsələlər bizi çox narahat edir. Qazancımız nədir ki, hələ onun da çox hissəsini möhtəkirlərə verək?

Buzqov daş karxanasının sex ustası Elman Bayramov deyir:

– Bizim sovetlik üç kəndi – Aşağı Buzqov, Yuxarı Buzqov və Gərməçataq kəndlərini əhatə edir. Kəndlərə un düzgün bölünmür. Mən onun əsas günahını kənd XDM icraiyyə komitəsinin rəhbərlərində görürəm.

Elman Bayramov sözünə davam edir:

– Karxanamızda 40 nəfər işləyir. Son aylar burada iş tamamilə dayanıb. Səbəbi traktorların olmamasıdır. Bu barədə döymədiyim qapı, demədiyim adam qalmayıb. Ancaq bir tədbir görən yoxdur.

Söhbətə səksən dörd yaşlı Mirələsgər Seyidov müdaxilə edir:

– Oğul, bu sərhəd kəndlərində dərdlərimiz çoxdur. Amma onlarla maraqlanan yoxdur. Deyək ki, kəndçi əti, yağı özü istehsal etməlidir. Bəs qəndə, şəkər tozuna nə söz? Ötən il bizə cəmi iki dəfə adambaşına 2 kiloqram şəkər tozu verilib. Sovetliyimizdəki üç kəndə cəmi iki vaqon kömür ayırmışdılar. O da əhalinin 50 faizinə çatmadı. Vaxtlı-vaxtında un da ala bilmirik. Başa düşürük, çətinlikdir, qıtlıqdır. Amma sual olunur: əgər bu şeylər yoxdursa, alverçilər haradan alıb baha qiymətə satırlar?

Öyrəndik ki, hərbçilər yanvarın əvvəllərindən çıxıb gediblər. Yuxarı Buzqovda milis postu var. Milis serjantı Qəhrəman Rəsulovun söhbətindən:

– Biz üç nəfərik. Dörd gündən bir postda növbə çəkirik. Amma bizim üçün heç bir şərait yaradılmayıb.

Kənd XDM icraiyyə komitəsinin katibi Həsən Muxtarovla söhbətdən aydın olur ki, sovetlikdə 1500 nəfərə yaxın əhali yaşayır. Onlardan, təxminən, 250 nəfər əmək qabiliyyətli işsiz var. Bu problemi nisbətən aradan qaldırmaq üçün Aşağı Buzqov kəndində Naxçıvan xalçaçılıq, Gərməçataqda trikotaj fabriklərinin filialları açılsa da, hazırda material olmadığından işləmir. Mağazalarda gündəlik tələbat malları tapılmır. Əhali sabunu, kibriti, siqareti və digər gündəlik tələbat mallarını möhtəkirlərdən od qiymətinə almağa məcburdur. Keçən ilin noyabr ayından Aşağı Buzqov kəndinə un verilməyib. Deyilənə görə, bu kəndin un fondu qurtarıb. Qəribə məntiqdir: fond qurtarıb, deməli, əhali ya çörəksiz qalmalı, ya da məcbur qalıb müxtəlif alverçilərdən baha qiymətə un almalıdır. Kəndə gələn marşrut avtobusu köhnə olduğundan vaxtlı-vaxtında işləmir. Sovetliklərdəki üç telefon da ki, sanki adamlardan üz döndərib – susub.

Günortaüstü kənddəki Vəli Zeynalov adına sovxozun direktoru İbrahim Zeynalov da gəlib çıxdı. Sərhəd kəndlərini əhatə edən bu təsərrüfatlarda gedən işlərlə maraqlandıq. Sovxozda 2701 baş davar bəslənilir. Burada 120 hektar əkin sahəsi var. Əmək adamları çalışırlar ki, təsərrüfatın iqtisadiyyatını yüksəltsinlər. Sovxozun tütünçüləri dövlətə 14 ton əvəzinə 21,4 ton keyfiyyətli məhsul təhvil vermişlər ki, bu da ötən illərdəkindən xeyli çoxdur. Lakin sovxoza dövlət büdcəsindən heç bir köməklik göstərilmir. Bizcə, sərhəd kəndindəki təsərrüfatın iqtisadiyyatını yüksəltmək üçün ona köməklik göstərilməlidir. Təsərrüfat öz imkanı daxilində bir sıra işlər görüb. Lakin ona lazımi köməklik göstərilsə, işlərin ahəngi xeyli yaxşılaşar.

***"Şərq qapısı" qəzeti, 1990-cı il***

***28 il bundan öncə "Şərq qapısı" qəzetində işıq üzü görən "Sərhəd kəndlərində vəziyyət necədir?" sərlövhəli yazıda müəllif o dövrün acı reallıqlarından ürək yanğısı ilə bəhs edir, problemin əsas səbəblərini ortaya qoyur. Yazının süjet xəttinə fikir versək, görərik ki, o dövrdə buzqovluları narahat edən iki məsələ daha qabarıq şəkildə ifadə olunub. Əvvəla, kənd etibarlı şəkildə qorunmurdu. Tez-tez sərhəd yaşayış məntəqələri ermənilərin hücumuna məruz qalır, top-tüfəng səsi bu yerlərdən əskik olmurdu. Kənd sakinləri ilə yanaşı, muxtar respublikamızın və ölkəmizin digər yerlərindən gələn eloğlular Buzqovun "Qaraquzey", "Koriyer", "Qətər" deyilən dağında – yamacında düşmən həmlələrinin qarşısını almış, ermənilərin Naxçıvanla bağlı məkrli planlarını alt-üst edə bilmişdilər. Lakin bu, hələlik heç nəyi ifadə etmirdi. Çünki sərhəd kəndlərinin inkişafı, tərəqqisi üçün etibarlı müdafiə, düşməndən qat-qat güclü ordunun təşkil edilməsi əsas şərt idi.***

# və bu gün

## Sərhəd kəndlərində sabitlik, əmin-amanlıq və inkişaf hökm sürür



Əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş müasir Azərbaycan Ordusu son 25 ildə böyük təşkilatlanma yolu keçərək peşəkar döyüş qabiliyyəti olan Silahlı Qüvvələrə çevrilə bildi. Güclü maddi-texniki baza, yüksək mənəvi-psixoloji vəziyyət imkan verir ki, Buzqov kəndində xidmət aparan oğullar düşmənin hər bir həmləsinə uğurla cavab versin, istənilən döyüş tapşırığını yerinə yetirsin. Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun Buzqov kəndi istiqamətində yerləşən bölməsinin dayaq məntəqəsində bu gün müasir infrastruktur yaradılır, yeni əsgəri-məişət kompleksi inşa olunur. Beləliklə, zamanında buzqovluların əsas dərd-sərlərindən olan etibarlı müdafiə uğurla təşkil olundu. Əlində ov tüfəngi ilə səngərdə dayanan kənd sakini yerini güclü Azərbaycan Ordusunun əsgərinə verdi. Özü isə kəndə qayıdıb iş-güclə məşğul oldu, təsərrüfatının qayğısını çəkməyə başladı.

Əsrin sonlarında dərdinə çarə gözləyən digər bir problem isə ərzaq qıtlığı ilə bağlı idi. Blokadanın gətirdiyi ağır və məşəqqətli günlər sərhəd kəndlərinin simasında özünü daha çox bürüzə verirdi. İmperiyanın oyunbazlıqla dolu təsərrüfat formalarından olan kolxozlar da özünü doğrultmamışdı. Beləliklə, ötən əsrin 90-cı illərinin əvvəlləri buzqovluların yaddaşına ən ağır və məşəqqətli günlər kimi yazıldı.

Türk dünyasının böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyevin Naxçıvanda Ali Məclisin Sədri kimi işləyib fəaliyyət göstərməsi, daha sonra ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə tale bu yurdun insanlarının da üzünə güldü. Torpaq islahatı aparılmaqla o, əsl sahibinə – kəndliyə qaytarıldı. Müstəqillik illərində muxtar respublikada əkin-biçinlə məşğul olanlar üçün yaxşı şərait yaradıldı. Müasir əkin və suvarma üsullarından istifadə



edilməklə torpaqların məhsuldarlığı artırıldı. Düzdür, Aşağı Buzqovda əkinəyararlı torpaqlar azdır, amma sakinlər bu il də dəmyə üsuluna üstünlük verməklə, 50 hektarlıq ərazidə taxıl əkini apariblar. Artıq biçin kampaniyası uğurla başa çatıb. Kənddə 40 tondan çox məhsul yığılıb.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Hüseyn Bağırov 2 il bundan öncə dövlət qulluğundakı səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalı ilə təltif olunub. Məlum hadisələr dövründən icra nümayəndəsi vəzifəsində işləyir. Deyir ki, uzun illər sovet dönəmindən qalma inzibati binada qış aylarında kömür, neft və digər yanacaq məhsulları hesabına oturmuşuq. Amma heç vaxt kənddən kənara çıxmağı düşünməmişik. Bu il rayonumuzun təşkil olunmasından 40 il keçir. Ulu öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və qətiyyəti ilə təşkil olunan Babək rayonunun bir neçə yaşayış məntəqəsində kompleks quruculuq işləri aparılır. Aşağı Buzqov da onlardan biridir. Vaxtilə sərhəd kəndindən çıxanlar indi bu yerin tanınmaz dərəcədə dəyişdiyini heyrətlə izləyir, yenidən doğma ocağa qayıdır, yurd salırlar. Buzqov çayının sıradan çıxardığı köhnə körpü yenisi ilə əvəz olunub, yollarımız abadlaşdırılıb, yeni kənd və xidmət mərkəzləri inşa olunur. Kəndin girişində ucaldılan müasir məktəb binası muxtar respublika rəhbərinin sərhəd kəndlərinə göstərdiyi diqqətin daha bir ifadəsidir.

Ziyalı Əhməd Şəkərli fikirlərini belə ifadə etdi: "Müstəqillik illərində Babək rayonu və onun kəndləri coğrafi baxımdan harada yerləşməsindən asılı olmayaraq, misligörünməmiş inkişafa nail olub. Bu, hər xalqa, millətə, dövlətə nəsib olan iş deyil. Uzun illər həsrətini çəkdiyimiz quruculuq tədbirləri Ali Məclis Sədrinin himayəsi və qayğısı sayəsində reallığa çevrilib. İndi kəndimizə 1800 metr yeni içməli su xətti çəkilib, yollarımıza asfalt örtük verilib, Buzqov çayı üzərində yeni körpü salınıb, kənd və xidmət mərkəzləri inşa olunub. Hazırda tikinti obyektlərində son tamamlama işləri aparılır. Əvvəllər hansısa tələbat üçün qonşu Cəhri və Payız kəndlərinə üz tuturduqsa, artıq buna ehtiyac qalmayacaq. Yeni inşa olunan xidmət mərkəzində sakinlərin ərzaq və sənaye məhsullarına olan tələbatı dolğun ödəniləcək və digər sosial xidmətlər göstəriləcək. Buna görə bir neçə il əvvəl şəraitsizlik ucbatından kəndi tərk edənlər yenidən bu yurda qayıdır, yurd-yuva salır, məskunlaşma artır. Bu, onu göstərir ki, Naxçıvanda yeniləşmə və inkişaf strategiyası kənddən şəhərə doğru aparılır".

Aşağı buzqovlu Vidadi Qaybalıyev bu il İqtisadiyyat Nazirliyinin xətti ilə əldə etdiyi güzəştli kredit hesabına arıçılıq təsərrüfatını genişləndirib. "Oğul-uşağın hamısını yerbəyer eləmişəm", – deyir. Amma işsiz-gücsüz qala bilmirəm. Kartof, kələm əkirəm, 5 baş qaramalım, 30 baş davarım var, 20 arı ailəsi saxlayıram. Buzqov torpağı bərəkətlidir, bu il tona yaxın kartof çıxaran sahibkarlar oldu. Buzqov balı, cəvizi, meyvə-tərəvəzi kənd təsərrüfatı yarmarkası və festivallarında adı ilə tanınır. Şükür, dolanışığımız yaxşıdır. Nə yada, nə də doğmaya ehtiyacımız var. Oğlum Fərid bu il keçirilən qəbul imtahanlarında Naxçıvan Dövlət Universitetinin tələbəsi adını qazanıb. Bir tərəfdən də kəndimizin abadlaşdırılması, yeni binaların inşa olunması məni ikiqat sevindirir."

Kənd ağsaqqalı İsmayıl Əsgərov deyir ki, dağ kəndində havalar soyusa da, əlimiz işdən soyumayıb. Aşağı Buzqovda, eləcə də ətraf kəndlərdə meyvə yığımının əsl vaxtıdır. Torpağımız bərəkətli, yaşayışımız rahat, daha bizə nə lazımdır?! Əvvəllər belə vaxtlarda "qara günümüz başladı", – deyərdik. İnsanlar qışın soyuğundan qorunmaq üçün meşələrə üz tutar, payızın ilk günlərindən min bir əzab-əziyyətlə odun tədarükünə başlayardılar. Amma indi evimizdə təbii qaz da var, elektrik enerjisi də. Qız-gəlinin də bu günlərdə, necə deyərlər, baş qaşımağa vaxtları yoxdur. Kimi qış üçün əriştə tədarük edir, kimi də kompot və şoraba hazırlayır. Kəndimizdəki ailə təsərrüfatlarından ərsəyə gələn məhsullar min bir dərdin dərmanıdır. İstehsal olunan məhsulun bazarı da var.

Günboyu bu sərhəd kəndindən topladığım, qeyd dəftərçəmə və yaddaşıma köçürdüklərimi oxucuya çatdırmaq üçün səbirsizlənirəm. Beləliklə, Naxçıvan istehsalı olan "NAZ Lifan 320" markalı avtomobilimizə əyləşib yola düzəlirik. "Salamat qalın!" deyirəm kəndə. Tezliklə bu yerlər abad yurd yeri statusunu qazanacaq və biz Aşağı Buzqovun illər uzunu həsrətini çəkdiyi müasir görkəmi ilə tanış olmaq üçün yenə qayıdacağıq.

**P.S:** Müqəddəs Vətən torpağının hər qarışını sonsuz məhəbbətlə sevən, onun bütövlüyünü, toxunulmazlığını vaxtilə canı bahasına qoruyan Yuxarı buzqovlular da indi bu yerlərdə firavan yaşayırlar. Artıq güllə vıyıltısı bu kəndə yaddır. Həmin kənddə yeni sosial obyektlər inşa olunub. İndi hər addımda bu sərhəd kəndində gözəllik, diqqətçəkən səliqə-sahmanla rastlaşırsan. Heç bir mübaliğəyə yol vermədən cəsarətlə demək olar ki, Yuxarı Buzqov da gerçək bir cənnətə çevrilib. 40 yaşını fəxr və qürurla qeyd edən Babək rayonunun inkişaf salnaməsinə müasirləşən kənd kimi adını yazdırıb.

**Muxtar RZAZADƏ**
**"Şərqin səhəri" qəzetinin redaktoru**

*Prezident təqaüdçüləri*

## Qəbul imtahanında 695 bal toplamış Elvariz Məmmədov:

## *Vətənimizə layiq gənclər olacağıq*



"İstənilən uğurun sirri özünəinam, məsuliyyət və səbirdədir", – deyən Elvariz Məmmədov bu il ali məktəblərə qəbul imtahanlarında II qrup üzrə 695 bal toplayaraq tələbə adını qazanan abituriyentlərimizdəndir. Kəngərli rayonunun Qıvraq qəsəbəsində dünyaya göz açan Elvariz Məmmədov 2007-ci ildə həmin qəsəbədəki tam orta məktəbin birinci sinfinə daxil olub. Öz bacarığı, qabiliyyəti ilə məktəbin sevimlisinə çevrilən bu şagirdin nailiyyət qazanmasında müəllimlərinin də əməyi danılmazdır. Orta təhsilini başa vurduğu Qıvraq qəsəbə tam orta məktəbinin direktoru Mahmud Cavadovun dediyinə görə, təhsil ocağının müəllimləri Elvarizdə istedad və elmə olan sonsuz marağı hələ kiçik yaşlarından hiss ediblər. O deyir ki, Elvariz məktəbdə keçirilən bütün bilik yarışlarında və tədbirlərdə aktivliyi ilə seçilib. 2016-2017-ci illərdə iştirak etdiyi respublika fənn olimpiadası üzrə "Gümüş", həmçinin 2017-ci ildə "Ölkəmizi tanıyaq" layihəsi üzrə Bakıda keçirilən bilik yarışında "Qızıl" medal qazanıb. Bundan əlavə, dəfələrlə olimpiadalarda iştirak edib və mükafatlara layiq görülüb.

Ailəsinin fəxri olan bu tələbənin valideynlərilə söhbət zamanı öyrəndik ki, onlar sadə peşə adamlarıdır. Elvarizin atası deyir ki, istər mən, istərsə də həyat yoldaşım ali təhsil ala bilmədiyimiz üçün ürəyimizdə qalan bu arzumuzun övladlarımız tərəfindən gerçəkləşdirilməsini istəmişik. Onların təhsil almaları, cəmiyyətə layiqli fərd kimi yetişmələri üçün əlimizdən gələni əsirgəməmişik. Şükür Allaha, onlar da bu arzumuzun yerinə yetməsi üçün səylə çalışıblar. Rza Məmmədov deyir ki, böyük oğlum kimi, Elvariz də hələ kiçik yaşlarından vaxtını təhsilə, mütaliəyə həsr edib. Bilik və dünyagörüşünü artırmaq üçün kitablar onun ən yaxın sirdaşı olub. Elə Elvarizin uğur qazanmasının başlıca səbəblərindən biri də mütaliəni sevməsi olub.

Bəlkə də həyatındakı ilk ən böyük nailiyyətilə müəllim və valideynlərinin sevincinə səbəb olan Elvariz Məmmədovla da söhbət etdik. Onun dediklərindən: – Düşünürəm ki, uğur qazanmaq üçün öncə hədəfin olmalı, qarşına real məqsəd qoymalısan. Təbii ki, bunun üçün təhsil başlıca şərtdir. Həyatda qalibiyyət qazanmağın yolu bilikdən, elmdən keçir. Digər tərəfdən, istənilən uğurun sirri özünəinamdır. Öz gücünə, ağlına, iradənə inanmalısan. İnam və hədəf olandan sonra, məncə, heç bir qüvvə insanın qarşısını ala bilməz. Bu gün həyatda tətbiq etdiyimiz bütün yeniliklər nə vaxtsa reallaşacağına inandığımız xəyallardır. Buna görə də insan daim öz üzərində çalışmalı, uğur qazanmaq üçün bütün çətinliklərdən keçməlidir. Onu da qeyd etməliyəm ki, bu gün muxtar respublikamızda təhsilin inkişafı üçün böyük işlər görülür. Hər il yeni məktəb binaları tikilir, təhsil ocaqları müasir tədris avadanlıqları ilə təmin olunur. Mənim orta təhsil aldığım məktəbdə də tədrisin yüksək səviyyədə qurulması üçün hərtərəfli şərait yaradılıb. Yəni demək istədiyim odur ki, müasir dövrdə şagirdlərin yaxşı oxumaması üçün heç bir səbəb yoxdur.

Elvariz Məmmədov deyir ki, bu il tam orta təhsili nailiyyətlərlə başa vuran bir qrup məzuna "Qızıl" və "Gümüş" medallar təqdim olunub. Mən də onlardan biriyəm – "Qızıl" medala layiq görülmüşəm. Elə bu etimadı da doğruldaraq qəbul imtahanında 695 bal toplayaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İqtisadiyyat fakültəsinə qəbul olunmuşam. Bu, mənim həyatdakı ilk əhəmiyyətli uğurum və ən böyük qazancımdır.

Müsahibimiz söhbətinin sonunda avqust ayının 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanında yüksək bal toplamış tələbələrlə görüşündə dediyi fikirləri bir daha səsləndirdi: ***"Ulu öndərimizin müəyyənləşdirdiyi vəzifələr Vətənə layiqincə xidmət etməyin və əsl vətəndaş kimi yetişməyin yoludur. Hər bir gənc harada təhsil almasından, yaşamasından və işləməsindən asılı olmayaraq, ölkəmiz haqqında düşünməli, öz həyat yolunu müstəqil Azərbaycanın gələcək yolu kimi seçməlidir".*** Mən də çalışacağam ki, göstərilən etimadı doğruldum, Vətənimizə layiq gənc olum. Biz də həmsöhbətimizi qazandığı uğura görə təbrik edir, ona ali təhsilində müvəffəqiyyətlər arzu edirik.

Onu da deyək ki, 2018-2019-cu tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı sərəncama əsasən Elvariz Məmmədov da Prezident təqaüdünə layiq görülüb. Bu, onun ikiqat sevincinə səbəb olub. Bu sərəncamın intellektual gəncliyə göstərilən böyük dövlət qayğısı olduğunu söyləyən Elvariz həmin təqaüdlə yeni elmi nəşrlər, əlavə dərslik və dərs vəsaitləri alaraq ixtisasını mükəmməl mənimsəməyə çalışacağını bildirdi.

Bəli, elm ucu-bucağı görünməyən sərhədsiz ümmandır. Alimlər, müdrik insanlar bu ümmandan nə qədər bəhrələnsələr də, onun xəzinəsi tükənməyib, aksinə, elm dəryası daha da dərinləşib, saflaşıb. Zaman ötüb keçir, ustad Nizaminin səkkiz əsr əvvəl dediyi kəlam isə yaşayır və yaşayacaq:

*Qüvvət elmdədir, başqa cür heç kəs*
*Heç kəsə üstünlük eyləyə bilməz…*

Sevindirici haldır ki, muxtar respublikamızda təhsilə, elmə böyük əhəmiyyət verən gənclərimiz ilbəil çoxalır. Hər il ali təhsil müəssisələrinə qəbul olan məzunlar içərisində 500-700 arası bal toplayanların sayı artır. Bu isə hər birimizin gələcəyə nikbin baxmağına inam yaradır.

**Gülcamal TAHİROVA**

## *"Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri"* kitabı rus dilində işıq üzü görüb

*"Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri" adlı fundamental kitab Rusiya Federasiyasının Orexova-Zuevo vilayətində Dövlət Humanitar Texnologiya Universitetinin nəşriyyatında rus dilində nəşr olunub.*




Kitabın müəllifləri AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov, həmin institutun əməkdaşları – professor Əliyar İbrahimov, biologiya üzrə fəlsəfə doktorları Ənvər İbrahimov, Ramiz Ələkbərov, Azərbaycan Dövlət Aqrar Universitetinin Elm şöbəsinin müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Abbas İsmayılov, kimya üzrə fəlsəfə doktoru, dosent Vahid Quliyev və Naxçıvan Dövlət Universitetinin baş müəllimi Əli Qurbanovdur.

Yeni nəşrdə Naxçıvanın flora biomüxtəlifliyində faydalı bitkilər, xüsusilə müalicəvi təsiri olan dərman bitkilərinin yayılma zonaları müəyyən edilib, onların tərkibindəki bioaktiv maddələrin ayrı-ayrı xəstəliklərdə müalicəvi əhəmiyyəti araşdırılıb. Kitabda, həmçinin Naxçıvan florasında yayılmış dərman bitkilərinin təbiətdəki müasir vəziyyəti və təbii ehtiyatı bol olan bu növlərin mövcud yayılma zonaları müvafiq xəritələrdə verilib. Dərman bitkilərinin rəngli fotoşəkilləri, yayıldığı ərazilər, kimyəvi tərkibi, müalicəvi əhəmiyyəti, eyni zamanda bu bitkilərin toplanması, qurudulması və saxlanması qaydaları göstərilib.

Kitabın elmi redaktoru, AMEA-nın müxbir üzvü Elşad Qurbanov, rəyçiləri isə AMEA-nın müxbir üzvləri Saleh Məhərrəmov və Tofiq Məmmədovdur.

Nəşr Naxçıvan Muxtar Respublikasında mövcud olan 132 növ rəsmi dərman bitkisinin sistematik vəziyyəti, təbii və istismar ehtiyatı, kimyəvi tərkibi və yayılma zonaları haqqında geniş təsəvvür yaradan ilk kitabdır.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Naxçıvanda Milli Musiqi Günü qeyd olunub





*18 sentyabr – Milli Musiqi Günü münasibətilə Naxçıvan şəhərindəki Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tədbir keçirilib.*

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova tədbirdə çıxış edərək deyib ki, ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrlərdə Azərbaycan musiqi sənətinin inkişafı üçün böyük işlər həyata keçirilib. Ulu öndər milli musiqimizin böyük simaları olan Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Tofiq Quliyev, Arif Məlikov və başqa dünya səviyyəli sənətkarlarımızın yaradıcılığını yüksək qiymətləndirib, Azərbaycan musiqi mədəniyyətinin inkişafına daim böyük qayğı göstərib. Onun qayğısı ilə ölkəmizdə musiqi mədəniyyətinin inkişaf dinamikası sürətlənib, Azərbaycan bəstəkarlarının beynəlxalq əlaqələri genişlənib, respublikada müsabiqələr, nəzəri konfranslar, müəllif gecələri, mahnı bayramları təşkil olunaraq gənc nəslin musiqi-estetik tərbiyəsinə böyük diqqət yetirilib.

Bu gün ölkəmizdə musiqimizin inkişafı sahəsində həyata keçirilən tədbirlər Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, milli musiqi ənənələrimiz yaşadılır.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında da milli musiqimizin inkişafına hərtərəfli dövlət qayğısı göstərilir. Son illərdə bu sahədə görülən işlərin miqyası, xüsusilə genişlənib. Naxçıvan şəhərində, rayon mərkəzlərində yeni musiqi məktəbləri inşa olunaraq istifadəyə verilib, Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının, Naxçıvan Musiqi Kollecinin maddi-texniki bazası gücləndirilib, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının, Aşıqlar Birliyinin fəaliyyəti üçün iş şəraiti təmin edilib.

Qeyd edilib ki, son illərdə muxtar respublikada 20-dən çox musiqi məktəbi inşa olunaraq və ya yenidən qurularaq öz qapılarını uşaqların üzünə açıb. 1998-ci ildə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin nəzdində fəaliyyətə başlayan konservatoriyanın ali təhsilli musiqiçi kadrların yetişdirilməsindəki müstəsna rolundan danışan nazir diqqətə çatdırıb ki, Naxçıvan musiqi mədəniyyətinin təbliği istiqamətində də əhəmiyyətli işlər görülməkdədir. Azərbaycan xalqının mədəni irsini yaşadan xalq musiqisi, qədim diyarımıza məxsus yallılar, xalq rəqsləri, toy adətləri təbliğ olunur.

Muxtar respublikanın musiqi kollektivlərinin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, musiqiçilərimiz dövlət mükafatları və fəxri adlarla təltif olunublar.

Nazir çıxışının sonunda mədəniyyətə, incəsənətə və musiqi sənətinə göstərilən diqqət və qayğıya görə bütün mədəniyyət işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra Milli Musiqi Gününə həsr olunmuş konsert başlayıb.

Konsert proqramında Naxçıvan Dövlət Filarmoniyasının Simfonik Orkestrinin ifasında dahi Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettasından, Fikrət Əmirovun "Azərbaycan" süitasından musiqilər səslənib. Azərbaycan Respublikasının Əməkdar artistləri Gülyanaq Fərzəliyevanın, Tural Nəcəfovun, Mübariz Əsgərovun, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Azər Cəfərlinin, gənc müğənni Rahim Əsgərzadənin ifalarında Azərbaycan bəstəkarlarının əsərlərindən ariya və mahnılar alqışlarla qarşılanıb. Azərbaycan Respublikasının Xalq artisti Əzizağa Məmmədov və Azərbaycan Respublikasının Əməkdar artisti Vilayət İsmayılov konsertdə xalq mahnılarımızı səsləndiriblər.

Bu il yaradılan simfonik orkestr Avropa bəstəkarlarının da musiqilərini tədbir iştirakçılarına təqdim edib. Konsert rəqs qrupunun "Odlar yurdu" rəqsinin ifası ilə başa çatıb.

Qeyd edək ki, Milli Musiqi Günü münasibətilə muxtar respublikanın rayon mərkəzlərində, mədəniyyət və təhsil müəssisələrində də tədbirlər keçirilib, konsert proqramları təşkil edilib.

## Mərkəzi Qan Bankında treninq keçirilib



***Naxçıvan Muxtar Respublika Xəstəxanasında qanvermə aksiyalarında, o cümlədən qarşıdan gələn Aşura günü keçiriləcək qanvermə aksiyasında qanın itkisiz götürülməsi və Mərkəzi Qan Bankına göndərilməsinin təşkilinə dair treninq keçirilib.***

Mərkəzi Qan Bankının müdiri Məmmədəli Həsənov bildirib ki, qarşıdan gələn növbəti Aşura günündə muxtar respublikanın bir sıra şəhər və kənd məscidlərində qanvermə aksiyalarının keçirilməsi nəzərdə tutulub. Bu aksiyaların mütəşəkkil təşkili üçün həkim və orta tibb işçiləri müəyyən hazırlığa, tibbi proseslərin lazımi qaydada həyata keçirilməsinə nail olmalıdırlar.

Sonra tibb işçiləri üçün təşkil edilən treninqdə qanın götürülməsi, müxtəlifölçülü paketlərə yığılması, bağlanması, saxlanması və müvafiq ünvana göndərilməsi qaydaları əməli şəkildə izah olunub. Tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Tədbirdə, həmçinin Mərkəzi Qan Bankı haqqında da məlumat verilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Şagirdlərin iştirakı ilə etüd təşkil edilib

*Dünən Naxçıvan Dövlət Rəsm Qalereyasında Milli Musiqi Günü ilə bağlı muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin rəsm ixtisası üzrə təhsil alan şagirdlərinin iştirakı ilə etüd təşkil edilib.*



Muxtar respublikada fəaliyyət göstərən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri kollektivlərinə göstərilən dövlət qayğısından danışan nazirliyin əməkdaşı Leyla Əlimərdanova qeyd edib ki, bu məktəblərin bir neçəsində uşaqlar həm də rəsm ixtisası üzrə təhsil alırlar. Hazırda 30-dək şagird rəsm ixtisası üzrə təhsil almaqla bu sahəyə maraq göstərir. Nazirlik və müəllimlər tərəfindən istedadlı şagirdlərə diqqət və qayğı göstərilir. Rəsm ixtisası üzrə təhsil alan şagirdlərin müsabiqəsi, həmçinin onların rəsmlərindən ibarət sərgilər təşkil edilir.

Çəkiləcək etüdlərin musiqimizə və böyük bəstəkarımız Üzeyir Hacıbəyovun yaradıcılığına həsr edilməsi əsas şərtlərdən biridir. Böyük bəstəkarımızın əsər və felyetonları mövzusunda rəsm əsərləri çəkmək həm də şagirdlərin dahi bəstəkarımızla bağlı biliklərinin ifadəsi kimi də qiymətləndiriləcək. Böyük bəstəkarımızın publisist yaradıcılığı bütün ruhu, canı, qanı, həm də mövzu dairəsi etibarı ilə "Molla Nəsrəddin" jurnalı ilə səsləşdiyi üçün şagirdlər üslub yaxınlığını aydın tuta biləcəklər.

Şagirdlərin çəkdikləri etüdlər tədbirin sonunda müəllimlər tərəfindən qiymətləndirilib.

**Əli RZAYEV**

# Oxucu məktubları

## Minnətdarlıq

### Tarixi abidələrin bərpası hər kəsin böyük sevincinə səbəb olub



*Hörmətli redaksiya!*

Bu gün bütün yaşayış məntəqələrimiz kimi, Yengicə kəndi də iqtisadi və sosial sahədə əsl inkişaf, yüksəliş yolundadır. Kənd camaatı birmənalı şəkildə bu inkişaf və yüksəlişi ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasətinin uğurla davam etdirilməsinin məntiqi nəticəsi hesab edir. Bu isə qədim kənddə yaşayan insanlara əlavə ruh, inam bağışlayır, onları doğma torpağa, yurda daha möhkəm tellərlə bağlayır.

Kəndimizdə geniş tikinti-quruculuq tədbirləri 2010-cu ildən başlanılıb. Yengicə yeniləşən, gözəlləşən kəndlər sırasına daxil olub. Amma yeniliklər bununla da bitməyib. Şərq memarlığının əvəzsiz nümunələrindən olan kənddəki Şərq hamamı yaxın günlərdə öz gözəl görkəminə qaytarılıb.Vaxtilə baxımsızlıq ucbatından uçulub, dağılmağa məhkum olan kənddəki bu memarlıq incisi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə yenidən qurulub, yüz illər öncəki gözəl görkəminə qaytarılıb. Hazırda bu abidə gözəlliyi ilə göz oxşayır. Onu da deyim ki, hamam XX əsrin 80-ci illərinə qədər fəaliyyət göstərib. Burada aparılan təmir-bərpa işlərində AMEA-nın Naxçıvan Bölməsinin əməkdaşları yaxından iştirak ediblər. Necə deyərlər, hər addım elmi sübutlara əsaslanaraq atılıb. Şərq hamamının yenidən qurulması zamanı onun tarixi izləri qorunub. Tariximizə, mədəniyyətimizə göstərilən qayğı bir ziyalı kimi məni çox sevindirir. Kənd sakinləri də görülən işlərin muxtar respublikada aparılan abadlaşdırma, müasirləşdirmə tədbirlərinin bir hissəsi olduğunu bilir və çox sevinirlər.

Yollarımız abadlaşıb, içməli və suvarma suyu ilə təminatımız yaxşılaşıb, rahat yaşayışımız üçün bütün tədbirlər görülüb. Tikilənləri, qurulanları qoruyub saxlamaq, torpaqları əkmək və bol məhsul istehsal etmək isə biz sakinlərin qarşısında duran əsas vəzifələrdir.

Dövlətimizin öz vətəndaşlarına bu cür qayğısı bizi daha da ruhlandırır. Xeyirxah məqsəd daşıyan belə möhtəşəm işləri həyata keçirən dövlətimizə minnətdarıq.

**Elmir ƏSGƏROV**
***Şərur rayonu,***
***Yengicə kənd sakini***

## Razılıq

### Dövlətimizin qayğısı sayəsində çətinliklər aradan qaldırılıb

*Hörmətli redaksiya,* bu məktubu sizə Şərur rayonunun Cəlilkəndindən yazıram. Mənə məxsus pay və icarəyə götürdüyüm torpaqlarda illərdir ki, əkinçiliklə məşğulam. Gecəni-gündüzə qatır, taxıl, meyvə-tərəvəz istehsalı ilə məşğul oluram. “Bir buğda əkməsən, min buğda biçməzsən”, – deyiblər ata-babalarımız. Dövlətimiz kənd adamlarına pay torpaqlarını sərbəst əkib-becərmələri üçün daim lazımi qayğı göstərir.



Əhalinin ərzaq məhsullarına olan tələbatının ilboyu ödənilməsinin təmin edilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarının fəaliyyətinin dəstəklənməsi, məhsulların tədarükü, saxlanması və satışı məqsədilə nə lazımdırsa edir. Kəndlərdə soyuducu anbarların yaradılması həm məhsulları qış dövründə istehlakçıya çatdırmağa, həm də ixracı daha da artırmağa imkan verir. Bu anbarların hər biri əhalinin meyvə-tərəvəz məhsullarına olan tələbatının ödənilməsində mühüm rol oynamaqla yanaşı, yeni iş yerlərinin açılmasına da öz töhfəsini verir. Kənd təsərrüfatının inkişaf etdirilməsi məqsədilə həyata keçirilən bu kimi tədbirlərin nəticəsidir ki, hazırda muxtar respublika əhalisinin taxıla, meyvə-tərəvəz məhsullarına olan tələbatı, əsasən, yerli istehsal hesabına ödənilir.

İllər öncə məhsulu saxlamaq çətinliyi yaranır və min bir əziyyətlə topladığımız məhsul zay olurdu. Bu gün isə dövlətimizin qayğısı sayəsində çörəklərini halal zəhmətlə, torpağı əkib-becərməklə qazanan insanların bütün bu çətinlikləri aradan qaldırılıb, həmin qayğılar öz həllini tapıb, aclıq və səfalətə, min bir zəhmətə son qoyulub. Rayonumuzun bir çox kəndində soyuducu anbarların istifadəyə verilməsi bizim işimizi xeyli asanlaşdırıb. Yaradılan şəraitə görə təsərrüfatçılar adından dövlətimizə minnətdarlığımı bildirirəm.

**Məhəmməd TAĞIYEV**
***Şərur rayon Cəlilkənd sakini***

### Yüksək rabitə xidmətinin təşkili rayon sakinlərinin ürəyincədir

*Hörmətli redaksiya!*

Mən Ordubad rayonunun Darkəndində yaşayıram. Ötən tədris ilinə kimi Aza kənd tam orta məktəbində ibtidai sinif müəllimi işləmişəm. Hazırda təqaüddəyəm. Muxtar respublikada həyata keçirilən quruculuq tədbirlərini daim izləyirəm. Bu tədbirlərin hər biri naxçıvanlıların yaxşı yaşamasına hesablanıb. Ötən günlərdə daha belə bir tədbirin sevincini yaşadıq. Ordubad rayonunda Rabitə Evi və Yeni Nəsil Telekommunikasiya Sisteminin istifadəyə verilməsi münasibətilə keçirilən açılış mərasimində iştirak etdim. Onu da demək istəyirəm ki, bu gün rabitə sahəsində ölkə səviyyəsində həyata keçirilən layihələr qısa müddət ərzində muxtar respublikamıza ayaq açır. Bu isə qədim yurd yerinin sakinləri tərəfindən onlara göstərilən qayğı kimi minnətdarlıqla qarşılanır.



Rayonumuzun rabitə xidmətində böyük dönüş olan bu layihənin reallaşması poçt bölmələrində kommunal ödənişlərin, üzvlük haqlarının və başqa xidmətlərin aparılmasına, pensiyaların paylanmasına imkan verib. Biz də bu imkanlardan yararlanmaq fürsəti əldə etmişik.

Yeri gəlmişkən onu da deyim ki, oğlum tibb elmləri doktoru Vüqar Süleymanov 20 ildən çoxdur ki, Böyük Britaniyada yaşayır. Təbii ki, onun doğma Vətənə tez-tez gəlmək imkanları məhduddur. Ordubadda bu şəraitin yaradılması ailəmizin oğlumuzla tez-tez əlaqə saxlamasına imkan verib. Bu günlərdə o, özü bizimlə əlaqə yaradaraq sevincini bölüşdü.

Hörmətli redaksiya!

Ailəm və Vətəndən kənarda yaşayan oğlum adından Ordubad rayonunda belə layihənin həyata keçirilməsində dövlətimizə, bu işdə əməyi olan bütün insanlara minnətdarlığımızı bildiririk.

**Hüseyn SÜLEYMANOV**
***Ordubad rayonu, Darkənd sakini***

## Oxucu sevinci

### Yeni dərs iliniz mübarək!

Mən təqaüdçü müəlliməm. Məktəbdə dərs deyən müəllimləri və təhsil alan şagirdləri görəndə ürəyim dağa dönür. Vətənimizin gələcəyinin daha da gözəl olacağına ümid bəsləyirəm.

*Elmin yolu bitən deyil,*
*Zəhmət çəksən, itən deyil.*
*Oxuduqca parlar zəkan,*
*Zülmət nuru ötən deyil.*

Zülmət yola nur saçan müəllimləri bu yeni dərs ilində təbrik edirəm. Onlara cansağlığı və işlərində müvəffəqiyyət arzulayıram. Şagirdlərə isə sağlam həyat və dərslərində uğurlar diləyirəm. Müstəqil Azərbaycan dövlətinin övladlarına dərs deyən müəllimləri alqışlayıram.

*Bağda gülü əkən bizik,*
*Zəhmətini çəkən bizik.*
*Kitablarla “çəkən” bizik.*

Yetişən savadlı nəsil öz elm və bacarığı ilə Azərbaycan dövlətinin bayrağı altında, dünyanın hər yerində Vətənimizin adına layiqli, şərəfli yerlər tutacağına əminəm.

Ziyalı və zəkalı vətənpərvər yetirən müəllimləri bağrıma basır və deyirəm:

*Əzizinəm, gül əkək,*
*Gəl yarışaq, gül əkək.*
*Qoymayaq tikan bitsin,*
*Biz çalışaq gül əkək.*

**Abbasəli İSMAYILOV**
***Ordubad rayonu, Dəstə kəndi***

### Təhsilə qayğı öz bəhrəsini verir

*Hörmətli redaksiya!*

Hər bir valideynin ən böyük arzularından biri də övladının tələbə adını qazanmasıdır. Bu gün ölkəmizdə, demək olar ki, bir çox valideyn bu arzusuna nail olur. Buna səbəb isə dövlətimizin təhsilə, gələcəyimiz olan gənclərə göstərdiyi qayğı və diqqətidir. Çəkilən əziyyətin bəhrələrini görmək bütün valideynləri sevindirir. Bizim ailəmiz də bu sevinci yaşayanlardan biri oldu. Qızım İlkanə Cəfərova qəbul imtahanında 528 bal toplayaraq bizi sevindirdi. O, artıq Naxçıvan Dövlət Universitetinin tələbəsidir.

Ucar dağ kəndində yaşamağımıza baxmayaraq, kənd tam orta məktəbinin binası paytaxt şəhərlərdəki təhsil ocaqlarından heç də geri qalmır. Burada qabaqcıl müəllimlər, təcrübəli pedaqoqlar çalışır. Şagirdlər də müəllimlərin tədrisindən bəhrələnərək təhsil sahəsində yüksək göstəricilər əldə edir, sevindirici nəticələr qazanırlar. Zaman-zaman təhsil sahəsində yaradılan möhkəm zəmin, sağlam bünövrə daha da möhkəmlənib, məktəbdə qabaqcıl ənənə formalaşıb. Müəllimlərə, eləcə də şagirdlərə dövlətimiz tərəfindən həmişə diqqət və qayğı göstərilir, onların yaxşı şəraitdə təhsil almaları, tədrisin yüksək səviyyədə aparılması təmin olunur, bu sahədə vəziyyət ildən-ilə yaxşılaşır. Bütün bunlar müəllimləri işinə daha sıx tellərlə bağlayır, şagirdləri isə yaxşı oxumağa sövq edir. Əminəm ki, dövlət qayğısının əhatəsində böyüyən gənclərimiz gələcəkdə peşəkar kadr, yaxşı mütəxəssis kimi dövlətimizə, xalqımıza layiqincə xidmət edəcəklər.

Yaradılan şəraitə, göstərilən qayğıya görə dövlətimizə dağ kəndinin sakinləri adından minnətdarlığımı bildirirəm.

**Kəmalə CƏFƏROVA**
***Şərur rayonu, Şahbulaq kəndi***

### Sürücülər tibbi müayinədən keçirilirlər

*İctimai nəqliyyatda əsas təhlükəsizlik şərtlərindən biri də sürücülərin reysqabağı tibbi müayinədən keçirilmələridir.*

Bu istiqamətdə Dövlət Nəqliyyat Xidməti tərəfindən lazımi işlər görülüb, sürücülərin reysqabağı tibbi müayinədən keçirilmələri üçün Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsində “Tibbi müayinə otağı” yaradılıb. Otaq ilkin tibbi yardım ləvazimatları ilə təmin edilib, eyni zamanda müasir standartlara uyğun Almaniya istehsalı olan alkolmetr cihazı alınıb. Burada sürücülərin reysqabağı tibbi müayinələri ümumi qaydalara uyğun həyata keçirilir. Bu zaman sürücülərin bədən temperaturu, təzyiqi ölçülür, nəbzi sayılır və nəfəsvermə havasında alkoqolun səviyyəsi müəyyən edilir.

Müayinə Səhiyyə Nazirliyinin ixtisaslı tibb işçiləri tərəfindən müəyyən olunmuş standartlara uyğun tibbi avadanlıqlardan istifadə edilməklə aparılır.

Tibbi müayinənin nəticələrinin qeydiyyatı isə sürücünün reysqabağı tibbi müayinə kitabçasında müayinə məntəqəsi tərəfindən təsdiq edilməklə həyata keçirilir.

Müayinələrin əsas məqsədi sərnişinlərin marşrutlardan rahatlıqla istifadə etməsinə zəmin yaratmaq, ictimai nəqliyyatdan istifadə edənlərin rahat və təhlükəsiz şəraitdə mənzilbaşına çatdırılmasını təmin etməkdən ibarətdir.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Nəqliyyat Xidmətinin***
***mətbuat xidməti***


### Elan

25 sentyabr 2018-ci il tarixdə saat 10[00]-da Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə “Səhiyyə işçiləri üçün əmək yarmarkası” keçiriləcəkdir.

İşaxtaran ali və orta tibb təhsilli məzunların iştirakı məqsədəuyğundur.

***Ünvan: Naxçıvan şəhəri,***
***Əziz Əliyev küçəsi 120***
***Naxçıvan Muxtar Respublikası***
***SəhiyyəNazirliyinin***
***inzibati binası***


### İtmişdir

Seyidzadə Mirziyəddin Mirşəfi oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri Qaraçuq kənd sakini İsmayılov Vaqif Əbülfəz oğlunun adına olan 209 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000,*
*Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Ramiyyə Əkbərova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1490. Sifariş № 673